# TANAP qaz kəməri - xaricdən Azərbaycana axan yeni "valyuta kəməri..."

**Gələn ildən etibarən Azərbaycana daxil olan xarici valyutanın həcmində əhəmiyyətli dərəcədə artım olması proqnozlaşdırılır. Bunun əsas səbəbi TANAP layihəsinin uğurla başa çatması, onun davamı olan TAP-ın da gəlin ilin ortasına kimi istifadəyə tam hazır vəziyyətə gətriləcəyi ilə bağlıdır.**

Xatırladaq ki, TAP-ın 90 faiz hissəsinin çəkilişi artıq başa çatıb. TAP kəməri vasitəsilə Azərbaycan Avropa bazarına ilkin mərhələdə 10, ikinci mərhələdə 20 milyard kubmetr qaz nəql edəcək. Gələcəkdə Avropa və Türkiyə bazarına çıxarılacaq Azərbaycan qazının həcmi 31 milyard kubmetri ötəcək.

Bütün bunlar fonunda Azərbaycana, neftlə yanaşı, artıq təbii qaz satışından da böyük həcmdə vəsait daxil olacaq. Özü də bu vəsaitin daxil olmasına məhz gələn ildən start veriləcək.

Azərbaycan Dövlət İqtisad Universitetinin iqtisadiyyat kafedrasının professoru Elşad Məmmədov da vurğulayır ki, TANAP layihəsinin reallaşması ölkəmizin makroiqtisadi göstəricilərində aktiv şəkildə öz əksini tapacaq: "TANAP qaz kəmərinin tam istifadəyə verilməsi Azərbaycan iqtisadiyyatının inkişafı baxımından dövlətimizin başçısı tərəfindən reallaşdırılan xarici iqtisadi siyasətin növbəti bir təntənəsi kimi səciyyələndirilə bilər. Çünki nəzərə almaq lazımdır ki, enerji daşıyıcıları bazarındakı volatillik, gərginlik, o cümlədən enerji daşıyıcılarının idxal vasitələrində də gərginliyə səbəb olur. Heç də təsadüfi deyil ki, bu gün artıq elmi cəhətdən əsaslandırılmış proqnozlara görə, müəyyən müddətdən sonra uzun-uzadı ixrac kəmərlərinin çəkilməsi iqtisadi cəhətdən rentabelliyini itirə bilər. Bu baxımdan Azərbaycanın bu layihəni məhz vaxtında reallaşdırması çox müsbət haldır. Mən Azərbaycanın deyəndə bunu təsadüfi demirəm, çünki bu layihənin həyata keçirilməsində ölkəmizin və dövlətimizin başçısının müstəsna rolu var. Bütün bunlar onu deməyə əsas verir ki, məhz Azərbaycanın bu layihənin vaxtında reallaşdırması milli iqtisadiyyatımızın inkişafı, o cümlədən xarici iqtisadi siyasətimizin dinamikası nöqteyinəzərdən dövlətimizin başçısı tərəfindən strateji yanaşmanın düzgün və vaxtında formalaşmasını göstərdi. Ona görə də xarici iqtisadi siyasət nöqteyinəzərdən hesab edirəm ki, Azərbaycan növbəti uğurunu qazandı və digər tərəfdən unutmayaq ki, bu layihənin reallaşması ölkəmizin makroiqtisadi göstəricilərində də aktiv şəkildə öz əksini tapacaq. Hesablamalarıma görə, illik təxminən 3 milyard ABŞ dolları Azərbaycana daxil olacaq, bu çox böyük rəqəmdir". Aydındır ki, ekspert tərəfindən səslənən rəqəm həm tədiyyə balansında müsbət nəticələrə səbəb olacaq, həm də bütövlükdə daxili valyuta və maliyyə bazarında xeyli dərəcədə müsbət dinamikaya şərait yaradacaq.




Bir məqamı da xatırladaq ki, Qaz İxracatçısı Ölkələri Forumu da Azərbaycanın Avropa üçün enerji sahəsində oynadığı rolun daha da yüksələcəyini və ölkənin enerji satışından böyük miqdarda gəlir əldə edəcəyini bildirib. Bunlar o fonda baş verir ki, Avropanın təbii qaza tələbi artır. Qaz İxracatçısı Ölkələri Forumu bəyan edir ki, qısamüddətli perspektivdə Avropaya boru kəmərləri ilə nəql edilən qazın həcmi artacaq. Yeni qaz kəmərlərinin istismara verilməsi Avropa ölkələrinə əlavə 102,5 milyard kubmetr qaz əldə eləməyə imkan verəcək. Bu fonda xüsusi qeyd edilir ki, 2020-ci ildə "Cənub Qaz Dəhlizi"nin ikinci mərhələsi olan TAP-ın istifadəyə verilməsindən sonra Azərbaycandan Avropaya boru kəmərləri ilə ixrac edilən qazın həcmi 16 milyard kubmetr artacaq. Bütün bunlar nəticə etibarı iləAzərbaycana daxil olan valyutanın da miqdarını xeyli yüksəldəcək. Xatırladaq ki, 2018-ci ildə Azərbaycanın strateji valyuta ehtiyatları 44,9 milyard dollar olub. Cari ilin ötən dövrü ərzində isə valyuta ehtiyatları artıq 50 milyard dolları keçib. Amma gələn ildən etibarən valyuta ehtiyatlarının artım miqdarı daha intensiv xarakter daşıyacaq.

Türkiyədə fəaliyyət göstərən Avrasiya İqtisadi Əlaqələr Dərnəyinin sədri Hikmət Ərən isə bildirir ki, qaz kəmərləri Azərbaycana, iqtisadi sahə ilə yanaşı, siyasi müstəvidə də böyük üstünlüklər qazandırır:"TANAP ideyasının ortaya çıxması və hazırkı vəziyyəti sözün əsl mənasında Azərbaycan və Türkiyə xalqları üçün bəxtiyarlıqdır. Türkiyə tarixdə ilk dəfədir ki, özünün təbii qaz tələbatını indiki qədər rahat yolla və təhlükəsiz qaydada təmin edir. Bu təchizat bütün parametrlər üzrə təhlükəsizlik deməkdir. Eyni zamanda, Azərbaycan da karbohidrogen ehtiyatlarının ixracı ilə bağlı öz maraqlarını təmin edən qərarlar verir və bunu reallığa çevirir. Avropa istehlakçıları TANAP-dan bəhrə gördükcə Azərbaycan və Türkiyənin bundan sonrakı birgə layihələrində iştirak etməyə xüsusi maraq göstərəcəklər". Bütün bunlar isə qarşıdakı müddət ərzində Azərbaycanın Avropa istiqamətində yeni mühüm transmilli layihələrə də start verəcəyini aydın göstərir. Təbii ki, bu da ölkəyə böyük həcmdə valyuta daxil olmasını şərtləndirəcək. Beynəlxalq qiymətləndirmələrə görə, Azərbaycanın valyuta ehtiyatları qarşıdakı dövrdə sürətlə artacaq. Bunu şərtləndirən başlıca səbəb enerji resursları ilə yanaşı, həm də qeyri-neft sektorudur. Azərbaycanın hazırda ümumdaxili məhsulunun üçdə iki hissəsindən çoxu məhz qeyri-neft sektorunun hesabına formalaşır. Ekspertlər bildirir ki, turizm, nəqliyyat, kənd təsərrüfatı, informasiya-kommunikasiya sektoru tükənməyən gəlir mənbəyidir ki, bu sahədə də işlər kifayət qədər uğurlu qurulub. Digər tərəfdən, dünyanın bir çox yerlərində Azərbaycanın sənaye evləri və ticarət mərkəzləri açılıb.

**Bunlar da Azərbaycan brendinin dünyaya çıxmasını şərtləndirən amillərdir. Eləcə də faktdır ki, Azərbaycan artıq Avrasiya məkanının nəqliyyat qovşağına çevrilib. Şərq-Qərb, istərsə də Şimal-Cənub istiqaməti üzrə nəqliyyat qovşağının işə düşməsilə bu istiqamətdən də ölkəyə valyuta axını sürətlə artır. Belə vəziyyətdə artan valyuta ehtiyatları Azərbaycanı iqtisadi cəhətdən daha qüdrətli ölkəyə çevirir.**

***Ramil QULİYEV***